## ❖ Dünyagörüşü və şəxsi keyfiyyətlər

- Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar hansılardır?
- Müstəqillik əldə etdikdən sonra Azərbaycan hansı uğurlara imza atıb?
- Azərbaycanın mədəni irsinin dünyada tanıdılması sahəsində hansı uğurlarımız var?
- 2020-ci il Azərbaycan tarixində, mədəniyyətində və təhsilində hansı hadisələrlə yadda qalıb?
- Son illərdə təhsil sahəsində hansı islahatlar həyata keçirilib?
- Dünya ölkələrinin təhsil sistemi barədə danışın. Mükəmməl təhsil sisteminə malik olan ölkələr və səbəblərini deyin.
- Təhsil sahəsində yeniliklər barədə məlumatları hansı internet resurslardan əldə edirsiniz?
- Nə üçün direktor işləmək istəyirsiniz?
- İndiyədək ən böyük uğurunuz nə olub?
- Hansı yerli və beynəlxalq layihələrdə, müsabiqələrdə iştirak etmisinizmi? Qalib olmusunuzmu?
- Şagirdləriniz yerli və beynəlxalq olimpiadalarda iştirak edibmi? Qaliblər varmı?
- Direktor işləyəcəyiniz müddətdə sizi həvəsləndirən və mane ola bilən hansı hallar baş verə bilər?
- Hansı hədəfləriniz var? Rəhbəri olacağınız məktəbin reytinqdə ilk sıralarda olması üçün sizə nə qədər müddət lazımdır?
- Hansı sahədə təhsilinizi artırmağa ehtiyacınız var?
- Rəhbəri olduğunuz ümumi təhsil müəssisəsinin fəaliyyəti mütəmadi olaraq sosial mediada tənqid olunur. İlk növbədə nə edərsiniz?
- Haqqınızda doğru qərar verməyimiz üçün özünüz barədə nə deyə bilərsiniz?